**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**RİYAZİYYAT VƏ MEXANİKA İNSTİTUTU**

"Dalğa dinamikası" şöbəsinin 2018-ci il üçün

**Qısa HESABATI**

## ELMİ FƏALİYYƏTİ HAQQINDA

Hesabat dövründə şöbədə "**Bütöv mühitlə təmasda olan prizmatik cisimlərin və örtüklərin dinamikası**" mövzusunda 9 elmi iş üzrə tədqiqatlar aparılır. Şöbənin 11 əməkdaşı var. Onlardan 10 nəfəri elmi işlə məşğuldur. 2018-ci ildə 16 məqalə çapa göndərilmiş, 8 məqalə çapdan çıxmış, 3 məqalə çapa qəbul olunmuşdur. 1məqalə Thomson Reuters impafaktor göstəricili jurnalda, 3 məqalə xarici jurnallarda çap olunmuşdur. 5 tezis respublika konfransina təqdim olunub.

## ELMİ - İCTİMAİ FƏALİYYƏTİ HAQQINDA

Şöbənin əməkdaşı , prof., f.-r.e.d.prof. Ağalarov C.H. Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində çıxış etmişdir.

Şöbənin əməkdaşı Rəsulova N.B., AAK –da ekspert şurasında çalışır.

Şöbənin əməkdaşı Ə.İ.Seyfullayev "Задачи механики разрушения и динамики неоднородных сред" adlı mexanika üzrə doktorluq dissertasiyasını müdafiə etmişdır..

Hal-hazırda "Neft-qaz hasilatının optimallaşdırılması və neft yataqlarının idarə edilməsi məsələlərinin həllində müasir kompüter proqramlarının istifadəsi" adlı qrant müsabiqəsinin iştirakçısıdır (Socar).

Şöbənin nəzdində istehsalat təcrübəsi keçən BDU-nun tələbələrinə praktikanın aparılmasında rəhbərlik etmişdir.

Seyfullayev Ə.İ. - Dissertasiya Şurası nəzdindəki tematik seminarda fəaliyyət göstərir, eyni zamanda hesabat dövründə bir dissertasiya işinə opponent olmuşdur.

Şöbənin əməkdaşları  Seyfullayev Ə.İ.,  Rüstəmova M.A., Məmmədova G.A. elmi pedaqoji fəaliyyətlə məşğuldurlar.

Şöbənin əməkdaşları  Seyfullayev Ə.İ.,  Kərimova Ş.A. “ The  6th International Conference on Control and Optimization with Industrial Applications” 11-13 July, 2018, Baku,  Azerbaijan konfrasında iştirak etmişlər.

F.Ə.Seyfullayev Gəncə Dövlət Universitetində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Müasir təbiət elmlərinin aktual problemləri” mövzusunda keçirilən Beynəlxalq elmi konfransda təşkilat komitəsinin tərkibinə daxil olub. Bundan əlavə F.Ə.Seyfullayev Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun kompleks elmi-tədqiqat proqramları üzrə 2015-ci ildə elan edilmiş AMEA İqtisadiyyat İnstitutu ilə birgə “Milli valyutanın devalvasiya şəraitində makroiqtisadi sabitliyinin modelləşdirilməsi “ qrant müsabiqəsinin iştirakçısıdır.

Şöbənin əməkdaşı  Zamanov A.D. Latviyada (Riqa) rus dilində, ABŞ-da (Nyu-York) ingilis dilində nəşr olunan, impakt faktor göstəricili “Mechanics of Composite Materials” beynəlxalq elmi jurnalının Redaksiya Heyətinin üzvü, «Mexanika-maşınşünaslıq» beynəlxalq elmi jurnalının baş redaktorunun müavini, «Nəzəri və tətbiqi mexanika» beynəlxalq elmi jurnalının baş redaktorunun müavini olaraq fəaliyyət göstərir.

ADPU-nun nəzdindəki FD02.061 Dissertasiya Şurasının sədr müavini, “Mechanics of Composite Materials” beynəlxalq elmi jurnalının redaksiya heyətinin üzvü, Mexanika-maşınqayırma beynəlxalq elmi jurnalının, Nəzəri və tətbiqi mexanika, Pedaqoji Universitetin Xəbərləri (Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, Riyaziyyat və təbiət elmləri seriyası) jurnallarının baş redaktorunun müavini, Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri, Təhsildə İKT jurnallarının redaksiya şurasının sədr müavini, Tarix, insan və cəmiyyət, Azərbaycan məktəbi jurnallarının redaksiya heyətinin üzvü kimi fəaliyyət göstərir.

Azərbaycanda keçirilən 10-a qədər Beynəlxalq və respublika səviyyəli elmi konfransların Təşkilat Komitəsinin sədri və sədr müavini olmuşdur.

Ş.Əliyeva, M.İlyasov, R.Əliyev, Ə.Baxşəliyev, F.Rüstəmov, N.Hüseynovanın müəllifləri ilə çap olunmuş "Hümanist pedaqogikanın aktual problemləri" metodik vəsaitinin elmi redaktorudur.

Şöbənin əməkdaşları institutun seminarlarında aktiv iştirak ediblər. İşə davamiyyət qənaətbəxşdir.

**Dalğa dinamikası**
**şöbəsinin rəhbəri:** **f.-r.e.d., prof.Ağalarov C.H.**